Redaktor guşəsi

# XEYİRLƏ ŞƏRİN MÜBARİZƏSİ

*İfadəyə adi qaydada baxaq, sonra qüvvəti birinci, daha sonra ikinci sözün üzərində saxlayıb tələffüz edək. Nəticəyə gəlməyə tələsməyək. Bir anlıq hiss edək ki, biz də Avropa xalqlarından biriyik, axı müstəqillik qazanandan bəri Avropaya can atırıq.*

*Avropa xalqları ifadəyə bizim kimi başdan yox, arxadan başlayırlar, yəni cümlənin başında MÜBTƏDA deyil, XƏBƏR dayanır. Bir anlıq təsəvvür edək, görək nə alınır.*

*MÜBARİZƏ... Ürəyimizin fatehi, beynimizin məhsulu, şüurumuzun sahibi mübarizə... Anadan olandan ölənə kimi mübarizə aparmırıqmı? Nəyinsə uğrunda, kiminləsə... bəzən fərqinə varmadan, faydasını-ziyanını düşünmədən mübarizə aparırıq. Bir də baxırıq ki, ömrümüzün yarısını, özü də ən məhsuldar dövrünü boş yerə xərcləmişik, nəticə də hasil olmayıb.*

*Qayıdaq mətləb üstünə...*

*XEYİRLƏ... ŞƏRİN MÜBARİZƏSİ...*

*Burada mübarizəni aparan kimdir? Mübarizə kimə qarşıdır? Mübarizə nəyin mübarizəsidir?*

*Baş açmaq çox da çətin deyil. İfadədən göründüyü kimi MÜBARİZƏ ŞƏRİN MÜNARİZƏSİDİR, özü də XEYİRƏ QARŞI...*

*Deməli, belə çıxır ki, bütün mübarizə aparanlar ŞƏR QÜVVƏLƏRDİR? Bəli, belə çıxır. Yoxsa, Xeyirlə Şərin mübarizəsi deyil, Şərlə Xeyirin mübarizəsi deyərdilər.*

*İndi Ərəb (Hicri-Qəməri, Hicri-Şəmsi) təqviminə görə MƏHƏRRƏM ayıdır. El arasında "məhərrəmlikdir" deyir, İmam Hüseynə matəm (yas) saxlayırlar. Kərbəla müsibətini hərə bir cür danışır, vaqeəyə cürbəcür don geyindirməyə çalışırlar.*

**XƏZAN**
*Ədəbi-bədii jurnal*

Sentyabr - oktyabr 2018

Baş REDAKTOR:
**Əli BƏY AZƏRİ**

**Rəşid BƏRGÜŞADLI**
NƏSR şöbəsinin müdiri

**Ramiz İSMAYIL**
POEZİYA şöbəsinin müdiri

**Redaksiya heyəti:** Ayaz İmranoğlu, Aygün Sadiq, Damət Salmanoğlu, Mahir Cavadlı, Məhəmməd Əli, Şahməmməd Dağlaroğlu, Şiringül Musayeva, Camal Zeynaloğlu, Ələsgər Talıboğlu, Rafiq Akif, Nemət Bəxtiyar.

*Redaksiyanın ünvanı:*
Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı

Əlaqə telefonları: **(070) 575 03 99**
Email ünvanı: **xezan23@mail.ru, 5750399a@mail.ru**

**Dönməz ABBASOV**
dizayn

Çapa imzalanıb: 10 oktyabr 2018-ci il

Ədliyyə Nazirliyində 15 yanvar 2016-cı ildə qeydə alınmışdır: 5331

Materiallar elektron variantında, yaxud diskdə və on dörd şriftlə printerdən çıxmış çap variantında (bir nömrə üçün) poeziya və publisistika beş, nəsr on səhifədən çox olmamaq şərtilə qəbul olunur.

Jurnalda dərc olunmuş yazılar tam olaraq bədii təxəyyülün məhsuludur və müəlliflər məsuldur.

JURNALI Azərbaycan Yazıçılar Birliyinin **"Bayatı"** və **KİTABEVİM.AZ** kitab mağazalarından əldə edə bilərsiniz.

*Kim necə don geyindirir geyindirsin, onun bizə dəxli yoxdur, belə ki, mübarizənin mahiyyətini açıqlamaq fikrindəyik.*

*Kim kiminlə mübarizə aparırdı? Haqq uğrunda mübariz kim idi? Bax, ədəbiyyatın qarşısında qoyulan sual bu olmalıdı! Zülmü hələlik ortaya soxuşdurmağa dəyməz. Yezid ibn Müaviyənin hakimiyyətinin bünövrəsində hansı dözülməz müsibətlərdən söhbət açmaq olar ki, camaatı təngə gətirsin? O, hələ hakimiyyətini möhkəmlədə bilməmişdi, deyirsiniz... Hüseyn ibn Əli və onun kimi daha bir neçə nüfuzlu şəxs hələ Yezidə beyət etməmişdilər, tabeçiliyini qəbul etməmişdilər, bunu da siz deyirsiniz...*

*Yezid ibn Müaviyə Xəlifə idi, Ərəb xilafətinin başçısıydı, böyüyüydü. Qanuni seçilmişdi, saxtakarlıq etmişdi, bunun dəxli yoxdur, hakimiyyəti zəbt edib oturmuşdu taxtda. Yəni, Allahın iradəsi ilə bu yüksək mərtəbəyə sahib çıxmışdı. Əgər Allahın izn olmasaydı, o, bu mərtəbəyə gəlib çata bilməzdi, bunu da siz deyirsiniz...*

*İmam Hüseyn atası Həzrət Əlidən qardası İmam Həsənə, o, öləndən sonra isə ona keçmiş İMAMƏTİN RUHSAL BAŞÇISIydı, indiki dildə desək, XİLAFƏTİN DİNİ LİDERİ idi.*

*Hakimiyyətini möhkəmlətmək istəyən padşah, əlbəttə ki, ölkənin dini lideri ilə işbirliyində olmalıdır, dini lider ona tabeçilik göstərməzsə, onu özünə tabe etdirməyi də bacarmalıdır. Sadəcə, burda Yezidin ağlı kəsməyib ki, yeni imam - RUHSAL BAŞÇI təyin etdirsin, yəni seçdirsin.*

*Əlqərəz, burda kim və kimə qarşı, nəyə görə mübarizə aparırdı?*

*Yezid mübarizə aparırdı ki, İmam Hüseyni özünə tabe etdirsin. İmam Hüseyn isə tabe olmamaq üçün əvvəl Mədinədən Məkkəyə, sonra da təqib olunduğuna davam gətirməyərək Məkkədən Kufəyə yerdəyişməli olur. Kufəyə buraxılmadıqda Kərbəla çölünə üz tutur və sonadək tabeçiliyi qəbul etmədiyinə görə qətlə yetirilir.*

*Burda istənilən qədər mövzu genişliyi yaratmaq mümkündür, amma ədəbiyyat adamlarından heç kim bu mövzuda QƏLƏMİNİ SINAMAQ fikrində deyil. Cahil mollalardan dərs almış fanat dindarlarla, onların lüzumsuz və məntiqsiz höcətləri ilə heç kim üzləşmək istəmir.*

*Ən azından real dövrümüzü və bizdəki qayda-qanunu götürüb müzakirə edə bilərsiniz. Bütün Qafqazın şeyxi bir dini lider kimi ərazisində yerləşdiyi və normal fəaliyyət göstərdiyi ölkənin siyasi hakimiyyətini tanıyır, tabe olur və qarşılığında siyasi hakimiyyət tərəfindən hörmət və rəğbətlə qarşılanır. Sizcə, belə yaxşıdır, yoxsa "tabe olmuram" deyərək qaçıb bir müddət Dağıstan rəhbərliyinə, bir müddət Çeçen, İnquş, Qaraçay-Çərkəz, Osetin, sonra da Gürcü hakimiyyətinə sığınmaq?!*

*Həyatda mübariz olmaq lazımdır! Mübarizə aparmaq lazımdır! Amma bundan əvvəl düşünmək, sonra mübarizəyə qərar vermək gərəkdir. Ədəbiyyatın da insanlar qarşısında qoyduğu vacib şərtlərdən biri elə budur. Yazıçılar, şairlər qəhrəmanlarını düşünmədən addım atdıqlarına görə oda-közə vururlar, onlara qənim kəsilirlər ki, həyatdan ibrət dərsi götürsünlər.*

*Həyatda olduğu kimi ƏDƏBİYYATda da Ulu Nizamidən üzübəri Xeyirlə Şərin mübarizəsi öz əksini tapıb. Ədəbiyyatda nəticə hasil olmadığı kimi həyatda da dünya binə olandan başlanan bu mübarizə hələ də gedir, nəyin üstündə gedir, bilinmir və nəticənin nə vaxt hasil olacağına inananlar da çox deyil.*

*Onda belə bir mübarizəyə nə deyəsən..?*

*İndi əyyam dəyişib. ŞƏR küçükləyib, aləmi bürüyüb. Odur ki, Şərin başı özünə qarışıb, Şər artıq şərə qarşı savaş açıb, şərlə vuruşur. XEYİR yaddan çıxıbmı?*

*Yox! Axı babalar bir başqa söz də deyiblər. Deyiblər ki, ŞƏRlə XEYİR qardaşdır.*

*Qardaş da qardaşa qarşı vuruşarmı? Qardaşın qardaşla nə işi...*

*Hörmətlə:*
***Əli bəy Azəri,***
***baş redaktor***